


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 99 (24.236)

*3 iyun 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Şərurda yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib





İyunun 2-də Şərur rayonunda gücü 3 meqavat olan yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev məlumat verib ki, Şərur Günəş Elektrik Stansiyasının layihə gücünün daha 3 meqavat artırılaraq 11 meqavata çatdırılması üçün 10 may 2022-ci il tarixdə İsveçrənin "Pure Energy Development" SARL şirkəti ilə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti arasında müqavilə imzalanıb. Kənd təsərrüfatına yararsız 5,3 hektar ərazidə şirkətin Naxçıvanda yerləşən "Duzqala" MMC podratçı şirkəti tikinti-quraşdırma işlərini həyata keçirib, stansiyada hər birinin gücü 330 vatt olan 9108 "PERC" tipli müasir "şüşə-şüşə" formalı günəş panelləri, hər birinin gücü 50 kilovat olan 60 invertor, müasir tip kommutasiya aparatları və digər elektrik avadanlıqları ilə təmin olunmuş 3 ədəd 35/0,4 kilovoltluq 1250 kilovat gücündə transformator yarımstansiyası quraşdırılıb. Stansiyada, ümumilikdə, 11 videomüşahidə kamerası qoyulub.

Səlahiyyətli nümayəndə günəş elektrik stansiyalarının qurulması ilə bərabər, enerji saxlanmasının vacibliyini, xüsusilə vurğulayıb.

Sonra stansiyaya baxış olub.

Qeyd olunub ki, mövcud 8 meqavat stansiyanın qapalı paylayıcı quruluşundan yeni 3 meqavat stansiyaya qədər 35 kilovoltluq əlaqələnmə güc kabeli və digər kommunikasiya kabelləri döşənib. Stansiyada daxilində 7 ədəd 35 kilovoltluq hücrələr olan ümumi qapalı paylayıcı quruluş tikilib. Şərur Günəş Elektrik Stansiyası 110/35/10 kilovoltluq "Şərur" yarımstansiyasından qidalanan 35 kilovoltluq "Arpaçay" hava elektrik verilişi xəttinə 2 dövrəli hava xətti ilə qoşulub. Stansiyanın layihə gücü 11 meqavata çatdırıldığı üçün il ərzində 16,5 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcək ki, bu da Şərur rayonunun elektrik enerjisinə olan tələbatının 21 faizini təşkil edəcək. Bununla da Naxçıvan Muxtar Respublikasında günəş elektrik stansiyalarının gücü 39 meqavata, illik istehsal gücü isə 58,5 milyon kilovat-saata çatdırılacaq.

Bildirilib ki, "Pure Energy Development" SARL şirkəti tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinə "Mitsubishi L200" markalı avtomobil hədiyyə edilib.

Stansiya ilə tanışlıqdan sonra Dövlət Energetika Xidmətinin əməkdaşları ilə görüşən səlahiyyətli nümayəndə deyib ki, Naxçıvanda Azərbaycanın digər bölgələri ilə müqayisədə günəş radiasiyasının faizi olduqca yüksəkdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvanı, ümumilikdə, "yaşıl enerji" dəhlizinə çevirməyi qarşısına məqsəd qoyduğunu bildirib, bunu üzərimizə strateji vəzifə kimi qoyub. Bu il Naxçıvan üçün olduqca əlamətdardır, həm də ona görə ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Heydər Əliyev İli" ilə əlaqədar tədbirlər həyata keçirik. Açılışın bu il baş verməsi də olduqca əlamətdardır. Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" dəhlizinə çevrilməsi istiqamətində işlər bundan sonra da uğurla aparılacaq. 1994-cü ildən Azərbaycan Respublikasının enerji təminatçısı kimi çıxış etməsi artıq həm Avropada, həm də dünyanın digər bölgələrində təsdiq olunub. Azərbaycanın karbohidrogen yataqları dünyaya açılıb. Buraya həm xarici investorlar cəlb edilib, eyni zamanda yerli investorlar üçün böyük şərait yaradılıb. Sevindirici haldır ki, enerji sahəsində Azərbaycan böyük dövlətlərin, xüsusilə də Avropanın etibarlı və dayanıqlı tərəfdaşına çevrilib. Bu proses məhz Ulu Öndər tərəfindən 1994-cü ildən həyata keçirilən və böyük layihə olan "Əsrin müqaviləsi" ilə başlayıb. Bu gün də bu proses davam edir. Azərbaycan ilk



karbohidrogen ehtiyatları sahəsində işi başlasa da, indi artıq biz daha innovativ metodlarla enerji təminatçısına çevrilmişik.

Cənab Prezidentin elan etdiyi kimi, bu işlərdə Naxçıvan Muxtar Respublikasının xüsusi payı var. Biz günəş, külək, hidro enerjiləri ilə bağlı layihələri sürətlə inkişaf etdirəcəyik. Artıq Azərbaycanın paytaxtı Bakıda bu proses başlayıb. Bakı Enerji Həftəsi keçirilir. Enerji Həftəsinin sonuncu günü qərarlaşdırılıb ki, Naxçıvanda qeyd olunsun. Biz bu tədbirə hazırlaşırıq. İyunun 3-ü Naxçıvan şəhərində tədbir davam etdiriləcək. İlkin məlumatlar alırıq ki, muxtar respublikada alternativ enerji sahəsində ciddi investisiyalar qoymaq üçün mühüm şirkətlər öz niyyətlərini açıq şəkildə etiraf ediblər. 400 meqavatlıq və daha sonra 500 meqavatlıq 2 enerji santralının qurulmasından söhbət gedir. Biz birdən-birə 400 meqavatlıq böyük bir layihənin icraçısına və sahibinə çevriləcəyik. Əlbəttə ki, bu, ciddi investisiya tələb edir. Azərbaycan Respublikasında aparılan uğurlu siyasətin nəticəsidir ki, xarici investorlar öz sərmayələrini Azərbaycanda rahat şəkildə qoymağa tələsir və maraq göstərirlər. Bu o deməkdir ki, Azərbaycan Respublikası stabil bir məkana çevrilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səyləri nəticəsində artıq Qafqazda, ümumilikdə, yeni reallıqlar yaranıb. 2020-ci ildəki 44 günlük Vətən müharibəsinin nəticəsi həm Azərbaycan, həm də region üçün yeni reallıqlar ortaya çıxarıb. Zəngəzur dəhlizi bu reallıqlardan biridir və dəhlizin reallaşdırılması Naxçıvan regionu üçün xüsusilə əlamətdar olacaq. Bu bizim nəqliyyat strukturunun inkişafına gətirib çıxaracaq, eləcə də biz Naxçıvan Muxtar Respublikasında istehsal olunan enerjini qonşu dövlətlərə ixrac etmək gücündə olacağıq. Ona görə də düşünürəm ki, bu, ilkin addımdır.

Fuad Nəcəfli bu sahədə görülən işlərlə bağlı xidmətin əməkdaşlarını təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

İsveçrənin "Pure Energy Development" SARL şirkətinin icraçı direktoru Mişel Kalerami deyib: "Bu gün Naxçıvan Muxtar Respublikası üçün əlamətdar bir gündür. 3 meqavat gücündə Günəş Elektrik Stansiyası uğurla tamamlanaraq istifadəyə verilir. Bunun üçün Naxçıvan sakinlərini təbrik edirəm. Şirkətim adından Naxçıvan Muxtar Respublikasında enerji sektoruna az da olsa, töhfə verdiyim üçün məmnunluq ifadə etmək istərdim. 2015-ci ildən etibarən burada olmaqla bizim əsas hədəfimiz ən yüksəkkeyfiyyətli Avropa komponentləri ilə yüksək standartlara uyğun günəş elektrik stansiyalarının tikilməsi olub. Coğrafi mövqeyi və əlverişli iqlim şəraiti muxtar respublikada alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Təsadüfi deyil ki, Naxçıvan alternativ enerji üzrə regionda lider hesab olunur. Yeni stansiyaların tikintisi ilə birlikdə növbəti addım Naxçıvanda "yaşıl enerji"nin toplanması olacaq. Azərbaycan hökumətinin dəstəyi sayəsində əminəm ki, Naxçıvan qısa zamanda "yaşıl enerji" zonasına çevriləcək. Yaradılan şəraitə və dəstəyə görə təşəkkür edirəm, əməkdaşlığımızın gələcəkdə də davam etməsini diləyirəm".

**"Şərq qapısı"**

## Ötən ay 1000-ə yaxın daşınmaz əmlak obyekti dövlət qeydiyyatına alınıb

Muxtar respublikada torpaqlardan səmərəli, təyinatına uyğun istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti, daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində ardıcıl fəaliyyətin təmin edilməsi cari ilin may ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılıb, xidmətin bütün fəaliyyət istiqamətləri üzrə işlər uğurla yerinə yetirilib. Hesabat ayında daxil olan müraciətlər əsasında, ümumilikdə, 998 daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları dövlət qeydiyyatına alınıb. Müvafiq dövr ərzində "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"na uyğun olaraq aid təşkilatların nümayəndələri ilə birgə Şərur rayonunun Yengicə və Babək rayonunun Yuxarı Uzunoba kəndlərində bələdiyyə sədrlərinin, ailə təsərrüfatı başçılarının, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilib.

2023-cü ilin may ayında vətəndaşlar tərəfindən xidmətə daxil olan müraciətlər əsasında, ümumilikdə, 695 texniki sənəd hazırlanıb. Muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranan 74 daşınmaz əmlak obyektinə ünvan verilib. Məhdudiyyət və yüklülüyə dair 371 arayış vətəndaşlara təqdim edilib, elektron informasiya sistemi vasitəsilə 414 əmlaka dair məhdudiyyət və yüklülük haqqında məlumat notariat ofislərinə göndərilib.

Xidmətin fəaliyyət istiqamətləri üzrə təqdim etdiyi elektron xidmətlərə hüquqi və fiziki şəxslər tərəfindən daxil olan 114 müraciət qəbul edilərək icra olunması üçün aidiyyəti üzrə yönəldilib. Həmçinin may ayında istifadəyə verilən "ASAN xidmət" mərkəzində müvafiq xidmət növləri üzrə, ümumilikdə, 136 vətəndaş müraciəti qəbul edilib.

Ötən ay ərzində kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranan hüquqlara dair 1200 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib, 4 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib. Qrafik üzrə təşkil olunan səyyari xidmətlər zamanı Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarındakı bir sıra yaşayış məntəqələrində vətəndaşlar qəbul edilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu gün ölkəmizdə bazar iqtisadiyyatının yeni formalarının tətbiqi, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində mühüm işlər görülür. Həyata keçirilən məqsədyönlü iqtisadi siyasət çərçivəsində müasir dövrün tələblərinə uyğun olaraq çevik vergi siyasəti də həyata keçirilir. Naxçıvan Muxtar Respublikasının 2023-cü ilin yanvar-aprel aylarının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr barədə müşavirə keçirilmiş, müşavirədən irəli gələn vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi tərəfindən Tədbirlər Planı təsdiq olunmuşdur. Tədbirlər Planında digər məsələlərlə yanaşı, vergi xidmətinin yüksəldilməsi, aylıq dövriyyəsinin çox hissəsi Naxçıvanda formalaşan təminat müəssisələrinin muxtar respublikada vergi qeydiyyatına alınmasının təmin olunması ilə bağlı da vəzifələr qarşıya qoyulmuşdur. Muxtar respublikamızda hazırda bu istiqamətdə hansı işlər görülür və vergi strukturundakı islahatları necə xarakterizə etmək olar? Suallarımızı Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi, baş vergi xidməti müşaviri* ***Abbas İsmayılov*** *cavablandırır.*

## Həyata keçirilən struktur dəyişiklikləri vergi sahəsində ədalətli rəqabət mühitini formalaşdıracaq

***– Abbas müəllim, xoş gördük sizi. Sualı artıq ünvanlamışıq, buyurun cavabı sizdən eşidək.***

– Xoş gördük. Bildiyiniz kimi, ölkəmizdə dövlət vergi nəzarətinin ədalətli, çevik, effektiv və səmərəli qaydada aparılmasının və vergi orqanı ilə vergiödəyicisi arasında etibarlılığa, şəffaflığa və qarşılıqlı anlaşmaya əsaslanmaqla, vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılmasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətində də struktur islahatları həyata keçirilmişdir. İdarəetmədə operativliyin artırılması, vergi xidməti orqanlarının işinin müasir tələblər səviyyəsində qurulması, vətəndaş məmnunluğuna nail olunması, vergi orqanlarının əməkdaşları ilə vergiödəyiciləri arasında fiziki təmasların minimuma endirilməsi və Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti orqanlarının strukturunun Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin formalaşmış təcrübəsi əsasında təkmilləşdirilməsi məqsədilə bir sıra rayon vergi orqanlarının idarə və şöbələrinin bir vergi orqanında birləşdirilməsi məqsədəmüvafiq hesab edilmişdir. Belə ki, Şərur Rayon Vergilər İdarəsinin, Sədərək Rayon Vergilər Şöbəsinin və Kəngərli Rayon Vergilər Şöbəsinin bazasında 2 saylı Ərazi Vergilər İdarəsi, Babək Rayon Vergilər İdarəsinin və Şahbuz Rayon Vergilər Şöbəsinin bazasında 3 saylı Ərazi Vergilər İdarəsi, Culfa və Ordubad Rayon Vergilər şöbələrinin bazasında 4 saylı Ərazi Vergilər İdarəsi yaradılmış, Naxçıvan Şəhər Vergilər İdarəsi yenidən təşkil



olunmuşdur.

***– Əhaliyə vergi xidməti sahəsində də tətbiq olunan yenilikləri müşahidə etməkdəyik. Xüsusilə yeni xidmət mərkəzinin yaradılması və mərkəzin vergiödəyicilərinin fəaliyyətinə təsiri haqqında fikirlərinizi öyrənmək maraqlı olardı.***

– Sevindirici haldır ki, Naxçıvan şəhərində ilk dəfə olaraq yaradılmış vergiödəyicilərinə xidmət mərkəzi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ərəfəsində hər zaman himayədarı olduğu sahibkarların istifadəsinə verilib. Burada məqsəd muxtar respublikada vergilərin könüllü ödənilməsi sisteminin gücləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, vergi orqanları ilə vergiödəyiciləri arasında şəffaf münasibətlərin qurulmasıdır. Xidmət mərkəzində vergiödəyicilərinə və vətəndaşlara xidmət üçün 5 təmsilçi fəaliyyət göstərir və gün ərzində ən azı 150 şəxsin qəbul edilməsi, həmin şəxslərə müxtəlif xidmətlərin göstərilməsi mümkündür. 22 may 2023-cü il tarixədək burada bir sıra istiqamətlər üzrə 652 vergiödəyicisinə və vətəndaşa müxtəlif növ xidmətlər göstərilib.

***– Bu ilin ilk 4 ayında ümumi sahələr üzrə vergi daxilolmaları nə qədər olub?***

– 2023-cü ilin yanvar-aprel ayları ərzində dövriyyələrin şəffaflaşdırılması istiqamətində aparılan işlər, vergi inzibatçılığının daha da təkmilləşdirilməsi, iqtisadiyyatın ayrı-ayrı sektorlarında müşahidə edilən bərpa templəri vergi və sosial sığorta daxilolmalarının artımına səbəb olub. Nəticədə, Naxçıvan Muxtar Respublikasında büdcəyə vergi daxilolmalarında müsbət dinamika üzrə davam edib. Cari ilin 4 ayında Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 51 milyondan çox vergi daxil olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 41,7 faiz və ya 15 milyon manat çoxdur. Təkcə bu ilin aprel ayı üzrə vergi daxilolmalarında 2022-ci ilin müvafiq dövrünə nisbətən 63,7 faiz və ya 5,6 milyon manat artım qeydə alınıb. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, könüllü bəyanetmə səviyyəsi 3 dəfə, könüllü ödəmə səviyyəsi 1,5 dəfə artıb.

***– Abbas müəllim, "ƏDVgeri al" kampaniyası və nağdsız əməliyyatların mövcud vəziyyəti ilə bağlı həyata keçirilən tədbirləri necə təhlil edərdiniz? Bu sahədə əhali marağı necə təmin olunur?***

– Qeyd edim ki, son illər ölkəmizdə nağdsız əməliyyatların təşviqi, elektron ödəniş sistemlərinin təkmilləşdirilməsi və rəqəmsal mexanizmlərin tətbiqi istiqamətində əsaslı tədbirlər həyata keçirilir. Nağd pul dövriyyəsinin həcmini azaltmaq və nağdsız alış-verişin əhatə dairəsini genişləndirmək iqtisadiyyatın müxtəlif sahələrində aparılan islahatlar arasında mühüm yer tutur. "ƏDV geri al" layihəsi də bu istiqamətdə həm stimullaşdırıcı, həm də yeni layihə kimi qiymətləndirilir. İnkişaf etmiş ölkələrin elektron pul təcrübəsindən fərqli olaraq, Azərbaycanda nağdsızlaşdırma istiqamətində atılan ən ciddi addımlardan biri kimi, "ƏDV geri al" layihəsi sahibkarlıq mühitində innovativ imkanlar yaradıb. Layihə, həmçinin ictimaiyyət tərəfindən də yüksək dəstək alır. Belə ki, ölkə üzrə 2020-ci ildən, Naxçıvan Muxtar Respublikasında isə 2022-ci ilin sonlarında başlayaraq tətbiq edilən "ƏDV geri al" layihəsi çərçivəsində 2023-cü ilin 4 ayında istehlakçılara, ümumilikdə, 545.232 kassa çeki üzrə 157,1 min manatdan çox, cari ilin aprel ayında isə 182.721 kassa çeki üzrə 52,6 min manatdan artıq ƏDV məbləği geri qaytarılıb. İlin əvvəli ilə müqayisədə aprel ayında kassa çekləri üzrə 3,9 dəfə, qaytarılan məbləğ üzrə 2,5 dəfə artım olub. Nəticədə, həm də vətəndaşların "ƏDV geri al" layihəsinə marağı xeyli artıb. Bundan əlavə, 2023-cü ilin yanvar-aprel aylarında muxtar respublikada nağdsız əməliyyatların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,9 dəfədən çox artıb. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublika İdarəsinin verdiyi məlumata əsasən cari ilin 4 ayı ərzində kartlar vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi 151,9 milyon manatdan çox olub. Ödənişlərin 23,7 milyon manatı POS-terminalların, 128,2 milyon manatı isə internet və digər ödəniş vasitələrinin payına düşüb.

***– Qeyd olunan dövrdə aktiv vergiödəyicilərinin sayı, mövcud obyektlərin nəzarət kassa aparatları ilə təminatı və POS-terminalların sayı haqqında da məlumat verməyinizi xahiş edirik.***

– Muxtar respublikada əlverişli biznes mühitinin formalaşdırılması, hüquqi və fiziki şəxslərin qeydiyyatının asanlaşdırılması, xüsusilə kommersiya qurumlarının elektron qaydada qeydiyyatının həyata keçirilməsi aktiv vergiödəyicilərinin sayının artmasına səbəb olub. Belə ki, 2023-cü ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikasında 1.938 yeni vergiödəyici qeydiyyata alınıb. Bunların 87,6 faizi fiziki, 12,4 faizi hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeydiyyata alınmış vergiödəyicilərinin sayı 2,2 dəfə, o cümlədən fiziki şəxslərin sayı 2 dəfə, hüquqi şəxslərin sayı isə 30 dəfə artıb. Həmçinin qısa zaman ərzində Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti tərəfindən yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) tətbiqi istiqamətində işlərə başlanılmış və zəruri tədbirlər davam etdirilir. 2023-cü il may ayının 1-i tarixinə muxtar respublika ərazisində 1.739 ədəd yeni nəsil nəzarət-kassa aparatı quraşdırılıb. POS-terminalların sayı isə ötən ilin eyni dövrü ilə müqayisədə 4,6 dəfə artıb.

***– Son olaraq hazırkı dövrdə vergi orqanları qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsini necə qiymətləndirirsiniz?***

– Vurğulamalıyam ki, vergi orqanlarının qarşısına qoyulan tapşırıqların icrasının başlıca şərti qanunvericiliyin ədalətli tətbiq edilməsidir. Hesab edirəm ki, Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətində baş verən struktur dəyişiklikləri vergi orqanlarının işini günün tələbləri səviyyəsinə qaldırmaqla, sahibkarlıq mühiti üçün əlverişli zəmin yaradacaq və ədalətli rəqabət prinsipinə söykənən iqtisadi mühiti formalaşdıracaqdır. Son bir neçə ay ərzində əldə olmuş nəticələrə əsasən, demək olar ki, Dövlət Vergi Xidmətinin strukturunda baş verən dəyişikliklər müsbət tendensiyaya səbəb olub və iqtisadi sahələrdə əldə olunan nəticələr artan templə davam etməkdədir. Vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi sahəsində görülən işlər, həmçinin qarşıya qoyulmuş yeni hədəflər daha çevik, yeni tələblərə adaptasiya oluna bilən, öz vəzifələrini zamanın çağırışlarına dərhal və adekvat uzlaşdıra bilən vergi sisteminin qurulmasını tələb edir.

**Səbuhi HƏSƏNOV**

## Naxçıvan Beynəlxalq Hava Limanında peşə bayramı qeyd olunub



*Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 may tarixli Sərəncamına əsasən iyunun 2-si hər il ölkəmizdə "Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü" kimi qeyd olunur. Bu münasibətlə Naxçıvan Beynəlxalq Hava Limanında tədbir keçirilib.*

Tədbirdən öncə Naxçıvan Beynəlxalq Hava Limanının kollektivi Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, dahi rəhbərin əziz xatirəsini ehtiramla yad ediblər.

Peşə bayramı günü ilə əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənşur Gülməmmədli bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə milli aviasiyanın inkişafı sahəsində böyük uğurlar qazanılıb. 1976-1980-ci illər üçün Azərbaycanda Mülki Aviasiyanın inkişaf proqramı hazırlanıb, bölgələrdə reaktiv təyyarələrin qəbulu üçün uçuş-enmə zolağı salınıb, hava limanları müasir radio və işıq texnikası vasitəsilə təchiz edilib. Mülki aviasiyanın ölkə həyatındakı rolunu yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik dövründə bu sahədə daha geniş tədbirlər görülüb. Naxçıvan Muxtar Respublikasının nəqliyyat problemlərinin həllinə Ümummilli Liderimiz xüsusi diqqət yetirib, 1976-cı ildə Naxçıvanda hava limanı tikilib istifadəyə verilib. 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan Ulu Öndər limanın uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu məsələ qısa müddətdə həllini tapmışdır. Sonrakı illərdə hava nəqliyyat növünə tələbatın artması Naxçıvanda daha müasir hava limanının tikilməsini zərurətə çevirmişdi. 2002-ci il oktyabr ayının 1-də inşasına başlanan limanda tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirilmişdir. Ulu Öndərimizin rəhbərliyi ilə Naxçıvan Beynəlxalq Hava Limanının fəaliyyətinin genişləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülüb.

Mənşur Gülməmmədli qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə mövcud hava limanlarının maddi-texniki bazasının gücləndirilməsi, aerovağzalların fəaliyyətinin müasir səviyyəyə çatdırılması sahəsində görülən işlər ardıcıl və sistemli xarakter alıb, inkişaf proqramları qəbul olunaraq həyata keçirilib. Dövlət başçısı Naxçıvan Muxtar Respublikasında da mülki aviasiya sisteminin müasirləşdirilməsini diqqətdə saxlayıb, 2004-cü ilin aprel ayında hava limanına Beynəlxalq Hava Limanı statusu verilib.

Tədbirdə çıxış edənlər yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıq ediblər.

Sonra hava limanının bir qrup əməkdaşı peşə bayramı günü münasibətilə Fəxri fərmanla təltif olunub.

**Ceyhun MƏMMƏDOV**

*Səhiyyə müəssisələrinin kadr ehtiyacının təmin edilməsi və ixtisaslı kadr potensialının komplektləşdirilməsi məqsədilə dövlət səhiyyə müəssisələrinə işə qəbul üçün növbəti müsabiqə keçirilib.*

## Tibb işçilərinin işə qəbul imtahanları keçirilib



385 vakant vəzifənin çıxarıldığı müsabiqədə iştirak etmək üçün 136 namizəd müraciət edib. Müsabiqədə namizədlərin 132-i orta ixtisas tibb işçisi, 4-ü isə həkim vəzifələri üzrə qeydiyyatdan keçib. Ən sıx müsabiqə vəziyyəti Nehrəm qəsəbə sahə xəstəxanasında mama (32) və Gülşənabad kənd feldşer-mama məntəqəsində tibb bacısı (35) vəzifələri üzrə yaranıb.

İki mərhələdən ibarət olan imtahanın test hissəsi 60 sualdan ibarətdir. Test hissəsi üzrə hər bir düzgün cavab bir balla qiymətləndirilir. İmtahan suallarının klinik tapşırıq hissəsi isə namizədin ixtisasına aid, habelə onun praktiki bilik səviyyəsini və peşə vərdişlərini müəyyən edən 5 sualdan ibarət olmaqla yazılı şəkildə keçirilib. Klinik tapşırıq hissəsi üzrə hər bir suala verilən cavab mütəxəssislər tərəfindən 5 ballıq sistem əsasında qiymətləndirilib. Klinik tapşırıq hissəsi üzrə 16 və ya daha çox bal toplamış şəxslər bu mərhələdən keçmiş hesab olunublar.

Qeyd edək ki, imtahanın test mərhələsində keçid balını toplayan 106 namizəddən 104 namizəd klinik tapşırıq mərhələsində iştirak edib. İştirak edənlərdən həkim vəzifələri üzrə 1, orta ixtisas tibb işçisi vəzifələri üzrə 74 namizəd uğur qazanıb, onların sənədləri aidiyyəti üzrə göndərilib. Qanunvericiliyə əsasən namizədlər arasında vakant vəzifə üzrə ən yüksək bal toplamış şəxslər müvafiq vəzifəyə təyin ediləcəklər.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## "Heydər Əliyev İli" çərçivəsində yeni yaradıcılıq müsabiqələrinə start verilib

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş ifaçılıq, rəqs və rəsm müsabiqələrinin keçirilməsinə başlanılıb.*

Müsabiqədə fərdi nominasiyalar 2, kollektiv nominasiyalar, rəsm və rəqs sənəti nominasiyaları isə 1 turdan ibarətdir. Müsabiqənin şərtlərinə görə iştirakçılar yalnız təhsil aldıqları ixtisas üzrə müsabiqədə iştirak edə bilərlər. Fərdi nominasiyalar üzrə 2 yaş qrupu müəyyən edilib. Müsabiqədə fərqlənən ifaçılar və kollektivlər Naxçıvan şəhərində keçiriləcək yekun konsertdə iştirak edəcəklər. II turun iştirakçıları, o cümlədən müəllimlər, konsertmeysterlər, həmçinin göstəricisi yüksək olan məktəblər müsabiqənin yekunlarına görə "İlin məktəbi" adı, Fəxri fərman və diplomla mükafatlandırılacaq.

Gənc istedadlara dövlət qayğısının artırılması, rəsm ixtisası üzrə tədrisin səviyyəsinin yüksəldilməsi məqsədilə təşkil edilən "Heydər Əliyev və müstəqil Azərbaycan" muxtar respublika rəsm müsabiqəsi iki yaş kateqoriyası üzrə keçiriləcək. Müsabiqə qalibləri yekun tədbirdə mükafatlandırılacaq və onların



əsərlərindən ibarət sərgi təşkil olunacaq.

Uşaq incəsənət məktəblərinin şagirdləri arasında keçiriləcək rəqs müsabiqəsi isə 2 yaş qrupu üzrə keçirilir, müsabiqənin iştirakçıları solo (fərdi), duet və qrup nominasiyaları üzrə müsabiqədə iştirak edirlər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikanın iqtisadi inkişafında meliorasiya və irriqasiya tədbirləri mühüm rol oynayır

Ölkəmizdə, eləcə də muxtar respublikamızda meliorasiya və su təsərrüfatı sahəsi böyük inkişaf yolu keçmişdir. Hələ 1932-ci il 22 noyabr tarixdə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin prezidium iclasının qərarı ilə Naxçıvan MSSR Su Təsərrüfatı İdarəsi yaradılmış, lakin bu təşkilat mövcud arxların istifadəsi və çaylarda kiçik işlər aparmaqla məşğul olmuşdur. Həmin idarənin nəzdində Şərur, Naxçıvan, Ordubad rayon suvarma sahələri fəaliyyət göstərmişdir. Suvarma suyuna olan tələbat artdıqca süni sututarların tikilməsinə və suyun bu sututarlarına yığılmasına ehtiyac yaranırdı. Buna görə də bir neçə kiçiktutumlu sututarlar tikilirdi. 1939-cu ildə Batabat-1, 1940-1950-ci illərdə Qahab, Xok, 1960-1965-ci illərdə Uzunoba və Nehrəm göllərinin tikilib istifadəyə verilməsinə baxmayaraq, muxtar respublika ərazisində meliorasiya və irriqasiya sahəsində həllini gözləyən məsələlər qalmaqda idi. Böyük tutuma malik su anbarlarının, çaylar üzərində sel sularını nizamlamaq üçün subölücü və digər hidrotexniki qurğuların tikintisinə ehtiyac yaranmışdı. Torpaqlarda texniki tədbirlər, meliorasiya işləri aparmaq lazım gəlirdi.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsi ilə bütün sahələrdə olduğu kimi, meliorasiya və irriqasiya sahəsində də genişmiqyaslı işlər görülməyə başlanıldı. Müasir meliorasiya və irriqasiyanın təməlinin hələ keçən əsrin əvvəllərində qoyulmasına baxmayaraq, onun əsas inkişafı Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf edir. Bu illər ərzində Onun şəxsi təşəbbüsü və bilavasitə köməkliyi ilə bu sahədə böyük quruculuq işləri aparıldı, güclü istehsal bazasına, tikinti və istismar təşkilatlarına, elmi-tədqiqat və layihə institutlarına malik ixtisaslaşmış meliorasiya və su təsərrüfatı kompleksi, geniş və tutarlı meliorasiya potensialı yaradıldı.

Meliorasiya və su təsərrüfatı sahəsində kompleks tikintilərin həyata keçirilməsi üçün müvafiq kadrlarla və maşın-mexanizmlərlə təchiz olunmuş tikinti-quraşdırma təşkilatına olan ehtiyacı ödəmək üçün 1976-cı ildə Meliorasiya və Su Tikinti Tresti yaradıldı. Müxtəlif illərdə bir-birinin ardınca tikilib istifadəyə verilən su



anbarları əhalinin suvarma suyuna olan ehtiyacının əsas hissəsinin qarşılanmasında, bu sahədə yaranan çətinliklərin aradan qaldırılmasında mühüm rol oynadı.

16 noyabr 1979-cu ildə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fərmanına əsasən 4 yanvar 1980-ci il Naxçıvan MSSR Nazirlər Sovetinin 5 nömrəli Qərarı ilə Naxçıvan Su Təsərrüfatı İdarəsi ləğv edilərək onun bazasında Naxçıvan MSSR Meliorasiya və Su Təsərrüfatı Nazirliyi yaradıldı. Həmin nazirliyin strukturuna rayon suvarma sistemləri idarələri, Maddi-Texniki Təchizat İdarəsi, 10 saylı Səyyar Tikinti-Quraşdırma İdarəsi, Süni Suvarma İdarəsi, Layihə Axtarış İdarəsi, Rayonlararası Təmir İstismar İstehsalat Birliyi idarələri daxil idi.

1980-ci ildə Sirab Su Anbarı, 1990-cı ildə Bənəniyar Su Anbarı, Naxçıvançay və Əlincəçay çayları üzərində tikilən baş suqəbuledici qurğular istismara verildi. Eyni zamanda suvarma suyunun əkin sahələrinə çatdırılması üçün magistral beton kanallar tikildi.

Dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2001-ci il 24 oktyabr tarixli Fərmanı ilə Meliorasiya və Su Təsərrüfatı Komitəsi, 2004-cü il 27 oktyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi yaradıldı. 2010-cu il 9 iyun tarixli



Fərmanla isə Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinə çevrilərək əsasnamədə dəyişikliklər edildi, əlavə vəzifə və hüquqlar verildi. Muxtar respublikada meliorasiya və su təsərrüfatı sahəsində idarəetməni təkmilləşdirmək məqsədilə 2020-ci il 6 mart tarixli Fərmanla Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əsasında Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti yaradıldı. 31 mart 2020-ci ildə Maşın-Mexanizmlərin və Hidrotexniki Qurğuların Təmiri və Texniki Nəzarət İdarəsi və Subartezian İdarəsi birləşdirilərək Texniki Nəzarət, Hidrotexniki Qurğuların və Subartezian Quyularının Təmiri İdarəsi, 31 mart 2020-ci il tarixdən Su Təmir-Tikinti İdarəsi təsis edildi.

Hazırda Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və tabe idarələri muxtar respublikanın içməli və suvarma suyuna olan tələbatının vaxtında və tam ödənilməsi üçün səylə çalışır. Cəmiyyətin və tabe idarələrinin melioratorları tərəfindən mütəmadi olaraq kollektor, kanal və arxlarda lildən təmizlənmə işləri görülür, torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işləri aparılır, torpaq sahələrini və yaşayış məntəqələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə seləqarşı istiqamətləndirici bənd tikilir. “Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsində içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilir.

“Naxçıvan Muxtar Respublikası üzrə su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2023-2025-ci illər üçün Tədbirlər Planı”na əsasən bu illər ərzində muxtar respublikada, ümumilikdə, 48 subartezian quyusunun qazılması nəzərdə tutulur. Qeyd edək ki, Culfa rayonunun Bənəniyar kəndində 1 subartezian quyusunun tikintisi işləri artıq başa çatıb, ötən dövrdə rayonun Yaycı kəndini içməli su ilə təmin edəcək su şəbəkəsi istifadəyə verilib. Hazırda Babək rayonunun Cəhri qəsəbəsində 1 subartezian quyusunun tikintisi işləri davam edir. Cəmiyyətin balansında 931 subartezian quyusu var ki, bu subartezian quyuları əhalinin içməli və suvarma suyuna olan tələbatının mühüm bir hissəsini ödəyir.

Ümummilli Lider Heydər Əliyev demişdir: ***“Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik”.*** Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev meliorasiya və su təsərrüfatının respublikamızın iqtisadiyyatında, regionların sosial-iqtisadi inkişafında, ölkə əhalisinin ekoloji cəhətdən təmiz və dayanıqlı ərzaq məhsulları ilə etibarlı təminatındakı rolunu nəzərə alaraq, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ilk dəfə olaraq müstəqil Azərbaycanda 1996-cı ildə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən “Meliorasiya və irriqasiya haqqında” Qanunun imzalandığı 5 iyun tarixi münasibətilə Meliorator günü peşə bayramının təsis edilməsi barədə 2007-ci il 24 may tarixli Sərəncam imzalamışdır.

Ölkə rəhbəri su təsərrüfatı və meliorasiya işçilərinin şərəfli əməyinə yüksək hörmət əlaməti olaraq onun miqyasını daha da genişləndirərək 5 iyun gününün “Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü” peşə bayramı kimi qeyd olunması barədə 2014-cü il 14 may tarixli yeni Sərəncam imzalamışdır.

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti dövlətimizin müəyyənləşdirdiyi psinsipləri rəhbər tutaraq muxtar respublikanın meliorasiya və su təsərrüfatı sahəsində həyata keçiriləcək bütün öhdəlikləri mütəmadi olaraq yerinə yetirməyə səy göstərəcək.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

*Sağlam uşaqlar sağlam cəmiyyətin təməlidir. Gələcəyimiz olan uşaqların sağlam böyümələri, onların düzgün formalaşaraq cəmiyyətdə xeyirli vətəndaş kimi yetişmələri dövlətimizin prioritet istiqamətlərindən biridir. Muxtar respublikada bütün sahələrdə, eləcə də səhiyyə sahəsində həyata keçirilən islahatlar Naxçıvanda tibbin sürətli inkişafı, əhalinin rifahının yüksəldilməsi və sağlam gələcəyimizin təmin olunması ilə nəticələnir ki, bu da insan sağlamlığına göstərilən diqqət və qayğının ən gözəl nümunəsidir. Səhiyyənin inkişafı üçün yaradılan hərtərəfli şərait muxtar respublikada bütün yaş təbəqələrindən olan əhalinin, eləcə də uşaqların sağlamlığının təmin olunmasına geniş imkanlar açır. Cəmiyyətimizin formalaşmasında əsas rol oynayan uşaqların istər təhsil aldıqları, istərsə də asudə vaxtlarında keçirdikləri zaman ərzində sağlam olmaları dövlətimizin xüsusi diqqətindədir.*

# Muxtar respublikada uşaq əhalisinin sağlamlığına xüsusi diqqət göstərilir



Göstərilən qayğının nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən mütəmadi olaraq uşaqların sağlamlığı istiqamətində əhəmiyyətli işlər görülür, sağlamlıq imkanları məhdud olan uşaqlar dispanser qeydiyyata alınaraq nəzarətə götürülür, uşaqların dərindən tibbi müayinəsi aparılır, müayinə və müalicəyə ehtiyacı olan uşaqlar ixtisas həkimlərinə yönləndirilərək qeydiyyata alınırlar. Hamilələrin qeydiyyatı reyestrində mütəmadi olaraq həkim ambulatoriyalarında və feldşer-mama məntəqələrində monitorinqlər keçirilir, rayon mərkəzi xəstəxanalarında və Perinatal Mərkəzdə həmin hamilələr reyestrə alınır, yenidoğulmuşlarda rast gəlinən anadangəlmə qüsurların vaxtında aşkar olunması məqsədilə müayinə və müalicələrin aparılması diqqətdə saxlanılır.

Muxtar respublikanın tibb müəssisələrində yaradılan hərtərəfli şəraitdən səmərəli istifadə edilərək əhalinin, eləcə də uşaqların tibbi müayinə və müalicələri yüksək səviyyədə aparılır, onların xəstəliklərinin vaxtında aşkar edilməsi məqsədilə dispanserizasiyası həyata keçirilir. Uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə onların arasında xəstələnmə, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılması məqsədilə muxtar respublikanın şəhər və rayonlarında uşaqlar qeydiyyata alınaraq dərindən tibbi müayinələrə cəlb olunmuş,



dispanser nəzarətə alınan uşaqların müvafiq ixtisas həkimləri tərəfindən müayinəsi aparılmışdır.

Təkcə 2023-cü ilin ötən dövrü ərzində müayinə olunan Naxçıvan şəhəri üzrə 13607 uşaqdan 7870-i, Babək rayonu üzrə 8865 uşaqdan 162-si, Şahbuz rayonu üzrə 1974 uşaqdan 145-i, Sədərək rayonu üzrə 1702 uşaqdan 58-i, Şərur rayonu üzrə 5498 uşaqdan 1150-si, Culfa rayonu üzrə 4076 uşaqdan 1236-sı, Ordubad rayonu üzrə 3987 uşaqdan 602-si, Kəngərli rayonu üzrə isə 3713 uşaqdan 438-i dispanser qeydiyyata alınmışdır. Beləliklə, muxtar respublika üzrə 51789 uşaqdan 43422-si müayinə olunmuşdur ki, onlardan da, ümumilikdə, 11661-i dispanser qeydiyyata alınmışdır.

Keçirilən tədbirlərin davamı olaraq 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə muxtar respublikanın tibb müəssisələrində müxtəlif aksiyalar keçirilir. Belə aksiyalardan biri də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Liv Bona Dea Hospitalın birgə təşkilatçılığı ilə Naxçıvan Diaqnostika Müalicə Mərkəzində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Beynəlxalq Uşaqlar Gününə özəl tibbi aksiyanın keçirilməsidir. Aksiyada Bakıdan gələn yüksəkixtisaslı həkim briqadası tərəfindən azyaşlıların ödənişsiz tibbi müalicə və müayinəsi aparılmış, balaca fidanlara tibbi xidmət göstərilmişdir.



Həmçinin Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın 100 illik yubileyi münasibətilə böyük layihəyə – Naxçıvan Muxtar Respublikasında IX-XI sinif şagirdlərinin keratokonus xəstəliyinin skrininqinin keçirilməsinə start verilmişdir. Bu məqsədlə təsdiq edilən Tədbirlər Planına uyğun olaraq muxtar respublikada yaşayan uşaq əhalisinin (hər rayon və şəhər üzrə ayrı-ayrılıqda) qeydiyyatı aparılıb, siyahıya alınmış uşaqların qısa müddət ərzində kütləvi skrininqlərə cəlb olunması işinə başlanılıb. Layihə Kəngərli, Culfa və Ordubad rayonlarında yekunlaşmış, digər rayonlarda isə davam etdirilir. Kəngərli rayonu üzrə 707 şagirddən 701-i, Ordubad rayonu üzrə 1085 şagirddən 950-si, Culfa rayonu üzrə isə 1182 şagirddən 1165-i müayinə olunmuş, nəticədə, ümumilikdə, 279 şagird keratokonus və rəng duyğusuna şübhəli kimi dərindən müayinə və müalicəyə cəlb edilmişdir.

Naxçıvan Muxtar Respublika Xəstəxanası publik hüquqi şəxsin təşkilatçılığı ilə Ordubad şəhər tam orta internat məktəbində humanitar tibbi aksiya keçirilmişdir. Aksiya zamanı şagirdlərə xəstəxananın terapevt, endokrinoloq, stomatoloq, uroloq, radioloq, nevropatoloq, lor, laboratoriya, travmatoloq, ginekoloq olmaqla, 17 nəfərdən ibarət həkim briqadası tərəfindən tibbi xidmətlər göstərilmişdir. Həkim briqadası tərəfindən, ümumilikdə, 46 şagird üzərində 240 müayinə aparılmışdır.

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlət uşaq siyasəti bu gün muxtar respublikada da uğurla həyata keçirilir. Uşaqların sağlam və hərtərəfli inkişafı üçün əsas şərtlərdən biri də uşaqlar arasında yoluxucu xəstəliklərlə mübarizə işinin düzgün təşkil edilməsidir. Tədbirlərin davamı olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq əmri ilə 24-29 aprel 2023-cü il tarixlərdə “İmmunlaşdırma həftəsi”nə start verilmiş, əmrə əsaslanaraq Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarında aprel ayının 24-dən kütləvi profilaktik peyvəndlərin aparılmasına başlanılmışdır. Bu müddət ərzində muxtar respublikada 383 nəfər peyvənddən yayınmış uşaq peyvəndə cəlb edilmişdir ki, onlardan da 132-si 0-1 yaş, 127-si 1-2 yaş, 57-si 3-6 yaş, 67-si isə 6 yaşdan yuxarı olmuşdur.

Bu gün muxtar respublikada uşaq əhalisinin sağlamlığı istiqamətində aparılan yeni islahatlar və tədbirlər gələcəyimiz olan uşaqlara göstərilən qayğının bariz nümunəsidir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Son günlərə öz damğasını vuran Brüssel və Moskva görüşlərinin nəticələri onsuz da ikiyə bölünmüş məğlub hayların arasındakı çaxnaşmanı daha da dərinləşdirib. Xankəndidəki baş cinayətkar Arayikin və Ermənistan baş nazirinin Moskvadakı bədbin notlarla dolu açıqlamalarını gördükdə separatçıların 35 il əvvəl, 1988-ci ildə başlatdıqları Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək kimi bədnam “miatsum” ərazi iddiaları bir daha yada düşür. Bu mənada, artıq Qarabağ münaqişəsinin tarixə gömüldüyü və bölgədə kommunikasiyaların açılması zərurəti müzakirə olunduğu bir zamanda bütün Cənubi Qafqazın inkişafını ən azı əlli il geriyə salmış erməni separatizminin və ya başqa dillə desək, onları məğlub vəziyyətə gətirib çıxaran bu sərsəm “boşanma davası”nın tarixçəsini haylara bir daha xatırlatmaq yerinə düşərdi.***

## 35 illik “boşanma davası”nın acı sonu: “davay do svidaniya”*(replika)*

Tarixən heç bir zaman bir yerə toplana bilməyib, dövlət qurmağı bacarmayan ermənilərin separatizm həvəsi hələ keçmiş SSRİ-nin guruldayan vaxtlarında belə olsa da, bu bədnam istək zaman-zaman onların qursağındaca çürüyüb qalıb. 1965-ci ildə İrəvanda instinkt əmri ilə küçəyə axışan çoxsaylı erməninin iştirakı ilə keçirilən və odövrkü dəmir rejimli Moskvanın bir əmri qısa müddətdə dağıdılan antitürk mitinq hələ o dövrdə bu bədbəxt millətin xəstəliyinin heç də ambulator müalicə ilə sağalmayacağı diaqnozu qoyurdu. Qardaş Türkiyədən torpaq iddiası ilə meydanlara çıxmış həmin “yanlar” o zaman Sovet dövlətindən ciddi bir kötək yesələr də, zaman keçdikcə erməni şüuraltında bunun bir yolunun tapılması üçün yeni bir günün gəlməsi fürsəti axtarılırdı. Ancaq qısa bir müddət sonra, yəni 1969-cu ildə xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycana siyasi hakimiyyətə təyin olunması ilə bu bədnam planlar ən azı 15 il də təxirə salındı. Ta ki yeni dövr erməni şovinisti Balayanın 1981-ci ildə erməni dilində İrəvanda, 1984-cü ildə isə rus dilində Moskvada çap etdirdiyi “Ocaq” kitabında Azərbaycana qarşı əsassız ərazi iddialarının irəli sürülməsinə qədər. Daha sonrası isə hər kəsə bəllidir: o dövrdə ermənilərə işləyən sovetlərin baş keçəl məddahı Qorbaçovun onları necə dəstəkləməsi, Qərbi azərbaycanlıların öz doğma torpaqlarından qovulması, 1988-ci ildə Qarabağda separatçıların Azərbaycandan ayrılıb Ermənistana birləşmək üçün başlatdıqları mitinqlər, həmin ilin fevralında iki azərbaycanlı gəncin qətlə yetirilməsi ilə başlanan qanlı hadisələr və rəsmi İrəvanın münaqişə tərəfi kimi Xankəndini Azərbaycanla üz-üzə qoymaq cəhdləri yaxşı yadımızdadır. Şübhəsiz, indi bütün bunları bizdən də yaxşı yada salan bugünkü Qarabağ erməniləri Paşinyanın Brüssel bəyanatından sonra artıq Ermənistanla olan “qısa evlilikdən” rəsmən “boşanmış” hesab oluna bilərlər. Buna görə də indi artıq Laçındakı nəzarət-buraxılış məntəqəsindəki Azərbaycan sərhədçisinə sənədlərini təqdim edib, keçən ermənilər bu gün həmin o lənətə gəlmiş erməni ideoloqlarına, onların bədnam kitablarına, separatizmi dəstəkləmiş erməni lobbisinə, əlinə avtomat silah alan keşişlərinə eyni dərəcədə hayları dünyada rəzil etmiş unitaz daşıyan Sarkis qədər nifrət edirlər. Görəsən haylar bir zamanlar başlatdıqları separatizmin sonunun belə bitəcəyini, hər iki tərəfdən on minlərlə insanı məhv edəcək bu qanlı münaqişənin səbəbkarı kimi damğalanacaqlarını, iri dövlətlərin əlində siyasət aləti kimi danışan kuklaya dönəcəklərini bilsəydilər bunu başladardılarmı? Yoxsa, doğrudan da, Qarabağı Ermənistana birləşdirmək istəyən ozamankı separatistlər xəritədə Laçın və Kəlbəcər kimi geniş əraziləri görməyəcək dərəcədə kor olublar? Ya, doğrudan da, bu insanların hamısında idman yarışındakı qızın əlindən bayraq qapıb qaçan erməni kimi bir meymun şüuru vardır? Kim bilir?! Amma onu deyə bilərəm ki, hazırkı ermənilərin ən ağıllısı sayılan Paşinyan belə gedərsə, öz millətinin sonunu yaxşı gördüyü üçün haqlı olaraq Qarabağ ermənilərinə də bu sözləri deyib: “davay do svidaniya!”

Kəlmənin rus dilində işlənməsi bir təsadüf olsa da, bu məncə, bundan sonrakı fikirlərimizə daha da dəstək olacaq. Belə ki, kolorit baxımından o qədər də zəngin olmayan rus dilindəki ən mədəni “çıx get!” ifadəsi bu yolla təkcə artıq heç kimə lazım olmayan Qarabağ separatçılarına deyil, həmçinin Ermənistanın üzv olduğu KTMT-yə, bu ölkədəki Rusiya hərbi bazasına və digər rus varlığına da ünvanlanıb. Lakin o da var ki, Rusiyanın bu ölkəni illərboyu forpostuna çevirməsindən, onun strateji müəssisələrinin tam sahibi olmasından, onunla istədiyi dildə danışmasından bezən Ermənistanın isə ondan “boşanması” heç də asan olmayacaq. Baxmayaraq ki, bu gün hələ də Rusiya azadlıqsevər Ukraynanın geniş bataqlıqlarında ilişib qalmaqda, beynəlxalq təzyiqlərə rəğmən rus xalqı işğalçılığa qarşı səs çıxarmamaqla öz tarixini ləkələməkdə davam edir, ancaq bu, Ermənistanın asan şəkildə Rusiyanın pəncəsindən qopub müstəqil olmaq xəyallarına qovuşması demək deyildir. Belarusu faktiki olaraq bir vilayəti kimi istiqamətləndirən Rusiya işğal olunmuş Ukrayna torpaqları ilə yanaşı, hələ də həllini tapmamış Abxaziya, Cənubi Osetiya, Dnestryanı kimi separatist qurumların birbaşa hamisi olaraq Ermənistanı da nəzarətdə saxlamaq, eləcə də Orta Asiya respublikalarında qızışdıra biləcəyi separatist ocaqları zaman-zaman gündəmə gətirməklə, sadəcə, öz varlığını qorumaq istəyir. Ancaq zaman artıq həmin 30-35 il əvvəlki zaman deyildir. Artıq Qarabağdan işğalçı Ermənistanın qovulması ilə Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi ilə yaranan yeni bir mərhələ Rusiya dəstəkli bütün separatist ünsürlərin də zamanla məhv olacağı tarixi daha da yaxınlaşdırır.

Bəli, bu gün Qarabağ ermənilərinin səsi özlərinin qazdığı quyunun ta dibindən gəlir. Azərbaycanın reinteqrasiya təkliflərinə “hə” deməyə üzləri olmayan haylar bütün dünyanın onlardan üz çevirdiyini hər keçən gün daha yaxşı anlayırlar. Bir zamanlar işğal etdikləri torpaqlarda əsl vəhşi həyatı keçirib, xalqımıza məxsus sərvətləri talan edəndə səsləri çıxmayan ermənilər yeni formalaşan dünya düzənində onlara yer olmayacağından bərk təşvişə düşüblər. Bu təşvişdən tələm-tələsik özünə “yeni evlilik” axtaran ermənilərə isə artıq bizim cəmiyyətdə qətiyyən yer olmayacaq. Çünki hər cür çirkin işlərlə bərabər, evlilik diplomatiyası ilə qızlarını digər xalqların içinə sızdırmış ermənilərin, onların nəvə-nəticələrinin iç üzü açıldıqca insanlar kimin dost, kimin düşmən olduğunu yaxşı biləcəklər.

**✍ Əli CABBAROV**

## Antibiotiklərdən özbaşına istifadə yolverilməzdir



Mütəxəssislər tərəfindən daim xəbərdarlıq edilməsinə baxmayaraq, bəzi insanlar antibiotiklərin uzun müddət qeyri-düzgün istifadə edirlər ki, bu da bir çox xəstəliklərə səbəb olur. Bu baxımdan antibiotikləri yalnız həkim təyinatı ilə bakteriyalara qarşı həssaslığı yoxlanılaraq qəbul etmək lazımdır.

Muxtar respublikada da özbaşına antibiotik preparatlarından istifadə edənlər az deyil. İndi istənilən vaxt apteka girib, heç bir həkim məsləhəti olmadan antibiotik alıb istifadə edirlər. Həmin şəxslər, nəticədə, sonradan onun fəsadları ilə üz-üzə qalır. İnsanlar xəstələndiyi zaman bəzən həkim məsləhəti olmadan məsuliyyətsiz insanların tövsiyələri ilə, ya da əllərdə gəzən əsassız reseptlərlə antibiotik alıb, istifadə edir, bəzən də apteklərdə məsləhət görülən hansısa antibiotikləri qəbul edirlər. Amma, təbii ki, bu cür hallar tamamilə qeyri-qanunidir. Antibiotiklərdən reseptsiz istifadə yolverilməzdir. Antibiotiklər, əksinə, xəstənin vəziyyətini ağırlaşdırır. Antibiotiklər orqanizmə əlavə yükdür. Təəssüf ki, insanlarımız bu reallığı qəbul edə bilmir. Elə bilirlər ki, antibiotiklərdən istifadə edilməsə, sağalmayacaqlar. Bu, tamamilə yanlış düşüncədir və insanın həyatını itirməsinə səbəb ola bilər.

Xüsusilə qeyd etmək istərdik ki, Avropada antibiotik qəbuluna nəzarət edən xüsusi komissiyalar var. Həmin komissiyanın qərarı olmadan tibb işçisinin antibiotik təyin etmək hüququ yoxdur. Türkiyədə də artıq apteklərdə antibiotiklərin reseptsiz satışının qadağan olunması ilə bağlı qərar qəbul edilib.

Səhiyyə Nazirliyi tərəfindən antibiotiklərin apteklərdə reseptsiz satılmasının qadağan olunması ilə bağlı çağırışlar edilir, bu məsələnin tənzimlənməsi istiqamətində tədbirlər görülür. Ümumiyyətlə, antibiotiklərin aptek şəbəkəsində reseptsiz satılması birmənalı şəkildə qadağan olunmalı, dərman preparatları yalnız resept əsasında satılmalıdır.

Ümid edirik ki, muxtar respublikada da əhali öz sağlamlığı naminə həkim məsləhəti olmadan hər hansı antibiotik və ya digər dərman preparatlarını alıb istifadə etməyəcək, öz sağlamlığını risk altına atmayacaq.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Torpaq alın təri ilə suvarılırsa...



*Şərur rayonunda hansı təsərrüfata getsən, orada zəhmətkeş insanları görmək mümkündür. İlin bu fəslində isə ələlxüsus... Ötən günlərdə – növbəti səfərimizdə rayonun Cəlilkənd kənd sakini* ***Yaqub Tağıyevlə*** *söhbətimiz zəhmətlə əkib-becərdiyi əkin sahəsinin kənarında baş tutdu:*

Onun söhbəti: – 2006-cı ildən – əlim iş tutandan əkib-becərməklə məşğul olan böyüklərimizdən məsləhətlər alıb, 13 hektar torpaqda taxıl əkdim. İlk vaxtlar torpağın dilini bir o qədər də yaxşı bilmədiyimiz üçün istədiyimiz qədər məhsula nail ola bilmirdik. Lakin ruhdan düşmədik. Torpağa alışdıq, təcrübəmiz artdı. Əbəs yerə atalarımız “Torpaq deyir: – Sən mənə tər ver, mən sənə zər verim”, – deməyiblər. Şükür Allaha, artıq çəkdiyimiz xərcin də, əməyin də qarşılığını ikiqat alırıq. Dükan-bazarlarımızın məhsullarla dolması, bol ruzi-bərəkət məhz torpaqlarımızın üzümüzə gülməsi sayəsindədir. Bu məhsullar zəhmətdən hasilə gəlir, əhalinin rifah halının yaxşılaşmasına öz töhfəsini verir.

Həmsöhbətim bu günlərdə bütün dünyanı narahat edən su problemindən də danışdı: – İstənilən halda sudan qənaətlə istifadə vacibdir. Bu gün əkin sahələrində müasir suvarma sistemləri quraşdırılmaqla insan əməyinin yüngülləşdirilməsi təmin edilir. Bu suvarma üsuluna yağışyağdırma üsulu da deyilir. Belə suvarmada su nasosların köməyi ilə xüsusi borular vasitəsilə çiləyici aparatlara müəyyən olunmuş təzyiqlə vurulur və yağış şəklində torpağa düşərək torpağı və bitkiləri nəmləndirir, torpağın məhsuldarlığının itirilməsinin qarşısı alınır. Suvarmanın kiçik normalarla və tez-tez aparılması hesabına həm də suvarma suyuna qənaət olunur, becərilən bitkilərin məhsuldarlığı yüksəlir. Eyni zamanda sahələrdə hər il əsaslı hamarlama işlərinin aparılmasına, şırım və zolaqların düzəldilməsinə ehtiyac olmur. Daha mürəkkəb relyef şəraitində bu üsulla istənilən kiçik həcmdə suvarmanın aparılması, eləcə də sahələrdə dövri suvarma normalarının həyata keçirilməsi mümkündür. Yağışyağdırma üsulundan müxtəlif növ bitkilərin (yonca, xaşa, qarğıdalı, soya, buğda, arpa, günəbaxan, kartof, çuğundur, kök və sair) becərilməsində geniş istifadə olunur. Çiləmə üsulunun bir üstün cəhəti də odur ki, bu suvarma sistemi vasitəsilə bitkiləri müxtəlif ziyanvericilərdən qorumaq üçün dərmanlama aparmaq asan olur. Belə ki, dərmanın miqdarı sahəyə görə hesablanır və su borularına vurulur. Beləliklə, dərmanlamanın da keyfiyyəti artırılır. Bu il rayonun Cəlilkənd, Mahmudkənd, Şəhriyar yaşayış məntəqələrində, ümumilikdə, 33 hektar ərazidə kartof əkini apardığını deyən müsahibim bildirir ki, həmin sahələrdə bu suvarma sistemindən istifadə edir. Həmin kəndlərin ərazisində 20 hektar ərazidə isə soğan əkdiyini deyən zəhmətkeş bu əkin sahələrində də gələcəkdə damcı suvarma üsulunu tətbiq etməyi planlaşdırır. O deyir ki, hər bitkinin özünəməxsus xüsusiyyəti olduğu üçün onun suvarılması da özünəuyğun qaydada aparılmalıdır. Əkdiyimiz bitkinin xüsusiyyətlərinə görə suvarma aparsaq, məhsulun həcmi də artar. Həmsöhbətim damcı üsulunun səmərəli olması barədə söhbətinə davam edir:

– Damcılama üsulunda suvarma suyuna qənaət olunmaqla, daha az su ilə daha çox sahə suvarılır. Bu suvarma üsulunda torpaqda eroziya prosesi baş vermir, qrunt sularının səviyyəsi su itkiləri olmadığından dəyişməz qalır, torpaqlarda təkrar şoranlaşmanın qarşısı alınır, suvarma suyu birbaşa bitkinin kök sisteminə verildiyindən onun kökətrafı zonada bərabər şəkildə paylanması təmin edilir. Su ilə birlikdə ehtiyac olan gübrəni də bitkiyə vermək olur. Bu üsul avtomatik idarə olunduğundan əl əməyi azalır. Bu suvarma üsulundan, əsasən, meyvə, tərəvəz, bostan və bir çox tarla bitkilərinin becərilməsində istifadə olunur. Bu zaman borular bitkinin növündən asılı olaraq torpaqaltı və torpaqüstü yerləşdirilə bilər. Bitkinin növünə və əkin sxeminə əsasən müxtəlif növ damcılama boruları və damladıcılardan istifadə edilir. Bu suvarma sisteminin bir üstün cəhəti də ondan ibarətdir ki, xüsusi filtrlər vasitəsilə su tərkibindəki qum, gil, yosun və sair zərərli hissəciklərdən təmizləndikdən sonra bitkiyə verilir. Damcı ilə suvarmanın iki növü vardır: Bağçılığın salınmasında damcı ilə suvarma (daimi sistem) və tərəvəz bitkilərinin damcı ilə suvarılması (mövsümi sistem). Damcı ilə suvarmada adi suvarmaya nisbətən 2-5 dəfə suya qənaət edilir. Bitkinin kök ətrafı suvarıldığından suyun torpaq səthindən buxarlanması ilə itkiyə getməsi baş vermir. Damcılı suvarma tətbiq olunan sahələrdə istənilən vaxt aqrotexniki xidmətlər göstərmək və məhsul yığmaq mümkündür.

Torpaq sahələrinin bir hissəsini icarəyə götürdüyünü bildirən müsahibim diqqətə çatdırır ki, əkin sahələrində 70-dən artıq işçi çalışır. İşçi sayı mövsümə görə dəyişir. Təsərrüfatımız böyüdükcə artıq ailə təsərrüfatından sahibkarlığa addım-addım yaxınlaşırıq, – deyən Yaqub Tağıyev onu da bildirir ki, muxtar respublikada ailə təsərrüfatlarının inkişafına yaradılan münbit şəraitdən istifadə edib. İlk olaraq lizinq yolu ilə bir traktor alıb. Sonra isə tədarük etdikləri məhsulların uzun müddət saxlanılması üçün soyuducu anbar inşa etdirməyə qərar verib. Elə bu məqsədlə 2016-cı ildə Sahibkarlığın İnkişafı Fondundan 50 min manat kredit götürüb. İlk olaraq 600, sonra isə 300 ton tutumu olan soyuducu anbar kompleksi inşa etdirib. Sahibkar onu da bildirir ki, soyuducu anbarların yaradılması həm məhsulları qış dövründə istehlakçıya çatdırmağa, həm də ixracı daha da artırmağa imkan verir. Bu anbarların hər biri yeni iş yerlərinin açılması ilə bərabər həm də əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rola malikdir.

Bu gün həmsöhbət olduğumuz zəhmətkeş Yaqub Tağıyevin dediklərindən belə qənaətə gəlmək olar ki, hazırda muxtar respublikamızda fəaliyyət göstərən onlarla ailə təsərrüfatı artıq sahibkara çevrilib.

**✍ Ramiyyə ƏKBƏROVA**

### *İtmişdir*

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 31 ünvanda Novruzov Namiq Yaqub oğlunun adına olan 91 inventar nömrəli texniki pasport MH-0016043 nömrəli daşınmaz əmlakın dövlət reystrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Yengicə kənd sakini Məmmədova Arifə Sadiq qızına məxsus JN-947 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Zeyvə kənd sakini Cəfərov Ram Mikayıl oğluna məxsus sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Abdullayev Qəzənfər İsmayıl oğlunun adına olan 459716 nömrəli Yeni Azərbaycan Partiyasının vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 369